# Odlar yurdundan Almaniyaya uzanan XƏDİCƏ ZEYNALOVA musiqi körpüsü

*Öz şərəfli həyatı və möhtəşəm ictimai-siyasi fəaliyyəti ilə doğma vətəni Azərbaycanın adını əlçatmaz zirvələrə ucaltmış möhtərəm Heydər Əliyev cənabları daim qürur hissi ilə deyirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".*

*"Mədəniyyət/Culture" jurnalının təşəbbüsü ilə müxtəlif peşə-sənət sahəsində böyük uğurlara imza atan həmvətənlərimiz barədə layihəmizin növbəti qonağı Almaniyanın Detmold Musiqi Akademiyasının (Hochschule für Musik Detmold) və Paderborn Universitetinin dosenti, "Səsin körpüsü" (Bridge of Sound) ansamblının bədii rəhbəri və eyniadlı cəmiyyətin sədri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, xanım bəstəkar və müsiqişünas Xədicə Zeynalovadır.*

*Sumqayıt şəhərində ziyalı ailəsində dünyaya göz açan Xədicə xanımın erkən yaşlarından musiqiyə marağı və xüsusi istedadı valideynlərinin diqqətini çəkir. Anası Əzizə xanımın bu sahəyə böyük həvəsi kiçik Xədicənin yaddaşında dərin iz buraxır: "Hələ mən körpə ikən evimizdə "Belarus" markalı piano olub. Anam musiqiyə sevgimi və həvəsimi görüb sənədlərimi Sumqayıt şəhər 3 saylı musiqi məktəbinin fortepiano sinfinə verdi. Bu mənim həyatımda peşəkar musiqiyə gəlişimdə ilk addımdır. Musiqi məktəbində fortepiano üzrə müəllimim Lyudmila Petrovna, solfecio, musiqi nəzəriyyəsi üzrə isə Raziyə xanım idi."*



## *Bəstəkarlıq sənətinə aparan yollar...*

"...Xatırlayıram ki, uşaq vaxtı cızma-qaraladığım notların yuxarısında öz adımı bəstəkar kimi qeyd edərdim. Sumqayıt Musiqi Texnikumunda oxuduğum zaman (1990-1994) mənə fortepiano ixtisası üzrə Rəna Mirzəyeva ilə yanaşı, musiqi nəzəriyyəsi, solfecio və harmoniya fənləri üzrə dosent Yaşar Mirzəyev dərs deyirdi. Məhz Yaşar müəllim ilk dəfə mənim bəstəkarlıq qabiliyyətimi kəşf edib düzgün yönləndirən şəxs oldu.



Xalq artisti professor Arif Məlikovla

## *Professor Xəyyam Mirzəzadənin sinifində...*

“...İki il qabaq dünyasını dəyişən ustadım, Xalq artisti, professor Xəyyam Mirzəzadə haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. Xəyyam müəllim gözəl pedaqoq və dərin ziyalı şəxsiyyət, həm də geniş diapazonlu bəstəkar idi. Onun şəxsində sənətinə çox ciddi, dəqiq yanaşan böyük peşəkar, eyni zamanda səmimi və zarafatcıl bir insan keyfiyyətləri cəmləşmişdi. Canlı ensiklopediya saydığımız professorun olduqca dəyərli, maraqlı və unikal dərslərində zəngin biliklər əldə edirdik. Müəllimi Qara Qarayevi daim yüksək hörmətlə anar, hər dərsdə onunla bağlı xatirələrini bizimlə bölüşməyi sevərdi. Xəyyam müəllim biz gənclərə ana vətənimizi sevməyi, xalq musiqisini dərindən öyrənməyi, milli-mənəvi dəyərlərimizə hörmət hissini aşılayırdı. 1994-1998-ci illərdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq və musiqişünaslıq üzrə bakalavr, 1998-2000-ci illərdə isə həmin ixtisaslar üzrə magistratura pilləsini onun sinifində başa vurmuşam.

Peşəkar bəstəkar həyatına başlayan tələbələrinin fəaliyyətini həmişə diqqətdə saxlayan Xəyyam müəllim, ona ünvanlanan hər bir müraciəti cavabsız qoymaz, öz dəyərli məsləhətlərini əsirgəməzdi. Təhsilimi Almaniyada davam etdirdiyim dövrlərdə biz daim telefon vasitəsilə ünsiyyətdə olur, yaradıcılıqla bağlı fikir mübadilələri edirdik. Vətənə hər döndüyümdə Xəyyam müəllimin ziyarətinə gedər, gördüyüm işlər, yaradıcılığımla bağlı bir növ hesabat verər, nailiyyətlərimlə bölüşərdüm. İndi də, hər dəfə yeni əsər üzərində işə başlarkən və ya bitirərkən ustadımla xəyalən söhbətləşir, onun qayğıkeş nəzərlərini üzərimdə hiss edirəm”.

## *Müstəqil bəstəkar həyatının başlanğıcında...*

Xədicə xanım bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Sumqayıt Musiqi Kollecində və Fikrət Əmirov adına 6 saylı musiqi məktəbində müəllim kimi fəaliyyət göstərir. 1999-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqının üzvlüyünə qəbul olunur. Həmin vaxtdan müxtəlif müasir musiqi festivallarında, plenumlarda və digər layihələrdə öz əsərlərilə çıxışlar edir.

Müəllifin Dövlət Simli Kvartetinin ifasında “Miniaturen”, Con Tempo ansamblının ifasında fleyta, klarnet, fortepiano, violin və violonçel üçün E-D-ES kvinteti, Qara Qarayev adına Dövlət Kamera orkestri üçün “Dəli-divanə aşıq”, Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin səsləndirdiyi “Qara Qarayevin xatirəsinə Memori”/“In Memoriam Kara Karaev” uğurlu əsərləridir.

2000-ci ildə Azərbaycan Respublikasında bəstəkarlıq üzrə keçirilən “İlin ən yaxşı əsəri” adlı müsabiqədə Xədicə Zeynalovanın “Simfonik poema”sı simfonik əsər nominasiyasında birinci yerə layiq görülüb.

## *Almaniyada təhsil və özünütəsdiq illəri*

Xədicə xanımın Qərbi Avropada təhsilini davan etdirmək üçün məhz Almaniyanı secməsi təsadüfi deyil. Bu ölkənin mükəmməl təhsil sistemi istər klassik, istərsə də, müasir musiqi mədəniyyətinin tədrisində aparıcı mövqe tutur. 2005-2006-cı illərdə doktorantura pilləsini (professor Martin Kristof Redelin sinifində bəstəkarlıq üzrə) bitirdiyi Detmold Konservatoriyası (Hochschule für Musik Detmold) və 2006-2012-ci illərdə musiqişünaslıq üzrə isə fərqlənmə diplomu ilə yekunlaşdırdığı Paderborn Universiteti bu sırada öndə gedən məşhur tədris müəssisələridir.


Xalq artisti, professor Xəyyam Mirzəzadə ilə

**PEŞƏKAR BƏSTƏKAR HƏYATINA BAŞLAYAN TƏLƏBƏLƏRİNİN FƏALİYYƏTİNİ HƏMİŞƏ DİQQƏTDƏ SAXLAYAN XƏYYAM MÜƏLLİM, ONA ÜNVANLANAN HƏR BİR MÜRACİƏTİ CAVABSIZ QOYMAZ, ÖZ DƏYƏRLİ MƏSLƏHƏTLƏRİNİ ƏSİRGƏMƏZDİ**

Xədicə Zeynalova: “Almaniyada yaşadığım ilk zamanlardan təhsil aldığım təhsil müəssisələrinin kitabxalarında Azərbaycan musiqi mədəniyyəti haqqında məlumat axtarısı bir nəticə vermədi. Belə vəziyyət məni bərk narahat etdiyindən “Azərbaycanın 20-ci əsr musiqi mədəniyyəti və Qərb musiqisinin təmayülləri” mövzusunda dissertasiya yazmaq qərarına gəldim. Elmi iş üç fəsildən ibarətdir. İlk fəsildə XX əsrdə formalaşan professional musiqi mədəniyyətimiz və onun beşiyi üzərində dayanan Üzeyir Hacıbəyli və Müslim Maqomayev haqqında ətraflı məlumat verilir. Növbəti fəsildə xalq musiqi xəzinəmizin müxtəlif tərəfləri şərh edilir. Nəhayət sonuncu fəsildə professional bəstəkarlıq məktəbimizin ünlü simalarından Qara Qarayev, Fərəc Qarayev, Arif Məlikov, Xəyyam Mirzəzadə, Cavanşir Quliyev və Firəngiz Əlizadənin yaradıcılıqları təhlil olunur.”

Tədqiqatçı 2012-ci ildə ilk azərbaycanlı musiqişünas olaraq “Azərbaycanın 20-ci əsr musiqi mədəniyyəti və Qərb musiqisinin təmayülləri” mövzusunda dissertasiyanı böyük uğurla müdafiə edir. Növbəti ildə isə elmi iş kitab şəklində Almaniyanın məşhur “Peter-Lang Verlag” nəşriyyatında işıq üzü görərək dünyanın bir çox ölkələrinə yayılır.



Almaniya Federativ Respublikasının Mədəniyyət Naziri, Professor Monika Grütters ilə (Detmold, Almaniya)



Soli Sono fleyta Triosu ilə (Axen, Almaniya)

## *İki dövlətin müasirləşən mədəni ünsiyyəti*

Alman dinləyicisinin peşəkar milli misiqi yaradıcılığımız barədə müəyyən praktiki tanışlığı var. Hələ 1955-ci ildə Berlin və Neytstrelits şəhərlərində Qara Qarayevin "Yeddi gözəl" baletindən süita (dirijor Q.Qildenbrant) və "Alban rapsodiyası" (dirijor Q.Şuman) ifa edilib. 1971-ci ildə isə rejissor Kondrat Volfun ekranlaşdırdığı "Qoyya" bədii filminin musiqisi Qara və Fərəc Qarayevlər tərəfindən yazılıb.

Respublikamızın müstəqillik illərində isə iki dövlət arasında mədəni ünsiyyət yeni mərhələyə qədəm qoyub. Xalq artisti, professor Firəngiz xanım Əlizadənin Berlində uğurlu bəstəkarlıq və pedaqoji fəaliyyəti (1999-2007-ci illər) bu baxımdan deyilənlərə gözəl misaldır. Dəyərli musiqişünas, Əməkdar incəsənət xadimi, professor Zümrüd xanım Dadaşzadənin 2003-cü ildə Almaniyanın MGG (Die Musik in Geschichte und Genenwart) ensiklopediyası üçün Azərbaycan bəstəkarları S.Hacıbəyov, C.Hacıyev, İ.Məmmədov və digərləri haqqında məqalələri diqqətəlayiqdir.

Almaniyada təhsilini uğurla bitirən Xədicə xanım 2012-ci ildən Bielefeld şəhərində musiqi və incəsənət məktəbində, 2013-cü ildən isə bu günədək Detmold Musiqi Konservatoriyasında və Paderborn Universitetində dosent vəzifəsində çalışır.

## *Azərbaycan musiqisinin alman torpağında hərarəti*

Qədim mədəni tarixə malik Almaniya kimi kifayət qədər rəngarəng və güclü rəqabətə söykənən mühafizəkar musiqi həyatında yüksək peşəkar meyarlara cavab verən və daim yeni ideyalarla zəngin müasir layihələr ortaya qoymaq həm çox çətin, həm də məsuliyyətli missiyadır. Qürürverici haldır ki, Xədicə xanım artıq Almaniyada müstəqil bəstəkar fəaliyyətinin ilk çağlarında bu sınaqdan uğurla çıxmışdır. Onun 2007-ci ildə Bertram Raynekin sözlərinə soprano və fortepiano üçün "Keçmiş haqqında altılıq" (Sestinen über Vergänglichkeit) adlı vokal əsəri Hamburger Klangwerktage beynəlxalq bəstəkarlıq müsabiqəsində 1-ci yerə layiq görülərək, Hamburq, Berlin və Leypsiq şəhərlərində uğurla ifa olunur, MDR radio-televiziyasında yayımlanır. Bu hadisə bəstəkar üçün gələcək fəaliyyətə ruhlandıran istinad nöqtəsinə çevrilir.

Bir-birinin ardınca solo blokfleyta üçün şəhidlərin xatirəsinə "Göz yaşlarıyla" (In Tränen), solo violonçel üçün "Düşüncə və hisslərimlə" (In Gedanken und Gefühlen), solo fortepiano üçün 5 hissəli "Qarabağ süitası" (I. "Preludium", II. "Şuşa qalası", III. "Cıdır düzü", IV. "Şəhidlərin xatirəsinə laylay", V. "İstiqlal Marşı"), mezzo soprano və fortepiano üçün "Səmada məhəbbət" (Lieben im Himmel), soprano və fortepiano üçün "Qış nağılı" silsiləsi kimi əsərləri, həmçinin violin, viola və violonçel üçün "Simli trio", fleyta, klarnet, trombon, zərb alətləri, violin, viola və violonçel üçün "Abşeron gecələri" (Absheron Nächte) septeti, fleyta, klarnet, truba, zərb alətləri, violin, viola, violonçel, kontrabas üçün "Əzizə üçün" (To Aziza) okteti və digər kompozisiyaları musiqisevərlər, tənqidçilər və mütəxəssislər tərəfindən maraqla qarşılanıb.

Xədicə Zeynalova: "...2016-cı ildə yaratdığım "Səsin körpüsü" (Bridge of Sound) ansamblının tərkibində Qərb musiqi alətləri fortepiano, violin, viola, violonçel, akkordeon, orqan, fleyta və digərlərilə yanaşı, milli alətlərdən tar, kamança, dəf, saz, balaban da vardır.

Əsərlərimi Azərbaycana uyğun adlandırıram ("Qarabağ həsrəti", "Atəşgah", "Qarabağ süitası", "Azərbaycan nağılı", "Qobustan lövhələri", "Novruz ayinləri" və s.) Hər bir konsertimdə və keçirdiyim bütün tədbirlərdə səslənən əsərlərimin adlarının geniş izahatını, Azətbaycanın qədim mədəniyyətindən və Odlar yurdunun zəngin musiqi irsindən alman tamaşaçısına məlumat verirəm."

2018-ci ildə bəstəkarın Azərbaycan Demokratik Respublikasının 100 illik yubileyinə həsr etdiyi "Odlar diyarından Azərbaycan Almaniya arasında körpülər" (Vom Land des Feuers Wege zwischen Aserbaidschan und Deutschland) adlı debüt CD albomu işıq üzü görür. Layihə Almaniyanın Mədəniyyət Nazirliyinin maddi dəstəyi və Dreyer/Gaido Musikproduktion şirkətinin iştirakı ilə gercəkləşir. CD-yə bəstəkarın simli kvartet üçün "Miniatürlər", solo violonçel üçün 3 hissəli "Sonata", viola və akkordeon üçün "Səma", solo violin üçün "Impressi-

ons" 3 hissəli sonatası, violin, viola və violonçel üçün "Simli trio", solo akkordeon üçün "Ataşgah", saz, violonçel və akkordeon üçün "Sevgi yolu" (Journey to Love), simli kvartet, saz, sopran və səs yazısı üçün yazılmış "Odlar diyarından lövhələr" (Vom Land des Feuers) əsərləri daxıldir. Albomun təqdimat konserti əvvəlcə Wöbbel, sonra Bielfeld şəhərlərində və ən nəhayət Kölndə Deutschlandfunk Radiosunda həyata keçirilib. Bəstəkarın əsərləri Almaniyadan kənarda Avstriya, ABŞ, Kanada, Macarıstan, İngiltərə, Fransa, Gürcüstan, Oman, Türkiyə kimi ölkələrin səhnələrində səslənir.





Bridge of Sound" (Səsin körpüsü) ansamblı ilə



Professorlar Martin Kristof Redel ve Prof. Heiner Eckels (Detmold, Almaniya)

## *Bəstəkar həyatı və ictimai fəaliyyət*

"Bu günlərdə Ali baş komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə şanlı ordumuzun illərdi mənfur qonşularımız tərəfindən işğal etdiyi ərazilərimizin azad olunmasında apardığı haqq savaşında bütün dünya azərbaycanlılarının ürəyi bir vurmalıdır. Məhz indi xalqımıza mənəvi dəstək nümayişində diaspor təşkilatlarının üzərinə böyük məsuliyyət düşür. Mən 2017-ci ildən "Bridge of Sound" (Səsin körpüsü) adlı təşkilatın yaradıcısı və sədriyəm. Göründüyü kimi, təskilat və ansamblımızın adının eyniliyi təsadüfi deyil. Belə ki, peşəkar musiqi həyatımı ictimai fəaliyyətimlə əlaqələdirərək, iki müstəvidə Azərbaycanla bağlı həqiqətləri düzgün formalaşdırıb tətbiq etməyi əsas vəzifə sayıram. Bu nəcib işdə basda cənab Fuad Muradov olmaqla Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi bizlərə böyük dəstək nümayiş etdirir. Mənim "Odlar diyarı Azərbaycandan" və "Heinrich və Leyla" adlı mühüm layihələrimin həyata keçməsində köməyini təşkilatımız və ansamblımız yüksək dəyərləndirir.

Bir çox ölkələrdə olduğu kimi Almaniyada da diasporların işinin əlaqələndirilməsi üçün koordinasiya şurası yaradılıb. Həmin Şuranın rəhbəri Yaşar Musayevdir. Düşünürəm ki, biz yaradıcı insanların və xaricdə yaşayan hər bir azərbaycanlının başlıca vəzifəsi Ana Vətənimizi ölkəmizin hüdudlarından kənarda yüksək səviyyədə, layiqincə təmsil və uğurla təbliğ etməkdir. Mən də Azərbaycanımızın adını daha da ucalara qaldırmaq üçün çalışıram və bundan sonra da var gücümlə bunu etməyə çalışacagam"

Biz də öz növbəmizdə Xədicə xanıma Azərbaycan naminə bütün nəcib işlərində uğurlar arzulayırıq! ❖

**Yavər Neymətli**
Azərbaycan Musiqi Mədəniyyəti
Dövlət Muzeyinin aparıcı elmi işçici,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru